**ANLAŞMA MEMORANDUMU**

# Mərakeş Krallığının Milli Kitabxanası

**və**

# Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu

**və**

# M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası

**arasında**

**Oktyabr 2025**

Mərakeş Krallığının Milli Kitabxanası (MKMK)

və

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu

və

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası

**arasında**

# ANLAŞMA MEMORANDUMU

## PREAMBULA

Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, M.F.Axundzadə adina Azərbaycan Milli Kitabxanası və Mərakeş Krallığının Milli Kitabxanası (bundan sonra "İştirakçılar" adlandırılacaq),

- elmi və mədəni irsin toplanması və qorunmasında İştirakçıların əməkdaşlığının təşviqini arzu edərək,
- iki ölkə arasında elmi və mədəni irs sahələrində bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın vacibliyini nəzərə alaraq; qeyd olunan sahələrdə İştirakçıların niyyətini və potensialını yüksək qiymətləndirərək,

**aşağıdakılar barədə razılığa gəldilər:**

### Paraqraf 1

İştirakçılar dövlətlərinin milli qanunvericiklərinə uyğun olaraq və öz səlahiyyətləri çərçivəsində aşağıdakı mühüm istiqamətlər üzrə əməkdaşlıq edəcəklər:

- kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması;
- elektron kitabxanalar və elektron kataloqdan qarşılıqlı istifadə;
- nadir kitablar və əlyazmalar üzrə məlumat mübadiləsi;
- informasiya mənbələrinin, o cümlədən nadir kitabların və əlyazmaların mühafizəsi (bərpa, saxlama, elektron nəzarət və digər texnologiyalar);
- kitab mübadiləsinin təşviqi;
- mədəni və elmi fəaliyyətin təşkili;
- mütəxəssislərin hazırlanması;

- mütəxəssislərin hazırlanması;
- təlimlərin, seminarların və konfransların təşkili;
- təcrübə və əməkdaşların mübadiləsi.

**Paraqraf 2**

İştirakçıların qarşılıqlı razılığı əsasında bu Anlaşma Memorandumuna onun ayrılmaz tərkib hissəsi olan ayrıca protokollar vasitəsilə dəyişikliklər edilə bilər.

**Paraqraf 3**

Bu Memorandumun müddəalarının təfsiri və ya tətbiqi ilə bağlı fikir ayrılıqları dostcasına həll ediləcəkdir.

**Paraqraf 4**

Bu Anlaşma Memorandumu beynəlxalq hüquqla tənzimlənən heç bir hüquq və ya öhdəlik yaratmır.

**Paraqraf 5**

Bu Anlaşma Memorandumu hər iki İştirakçının imzaladığı tarixdən qüvvəyə minir və 3 (üç) il müddətində etibarlıdır. İştirakçılardan biri bu Anlaşma Memorandumunun müddətinin bitməsinə ən azı 6 (altı) ay qalmış onun fəaliyyətinə xitam verilməsi niyyəti barədə digər İştirakçıya yazılı bildiriş göndərmədiyi təqdirdə, bu Anlaşma Memorandumu avtomatik olaraq növbəti 3 (üç) illik müddətlərə uzadılır.

2 Oktyabr 2025-ci il tarixində Baku şəhərində üç əsl nüsxədə Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər hüquqa malikdir.

Bu Anlaşma Memorandumunun müddəalarının təfsirində fikir ayrılığı yaranarsa, ingilis dilində olan mətnə üstünlük veriləcəkdir.

| Mərakeş Krallığının Milli Kitabxanası | M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası | AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu |
| --- | --- | --- |
| Samira El Malizi<br>Direktor | Kərim Tahirov<br>Direktor | Teymur Kərimli<br>Direktor |